AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 18 (1418), 30 aprel - 6 may 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.




## Bakıda Formula 1 SOCAR Azərbaycan Qran-Prisi başa çatıb

Aprelin 28-də Bakıda Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib. Əvvəlcə pilotların paradı və açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışına baxıblar.

Formula 1 Azərbaycan Qran-Prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılış mərasimi maraqlı anları ilə yadda qaldı.

Paradda və himn mərasimində pilotları azyaşlılar müşayiət etdilər. Formula 1 şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının "Gələcəyin ulduzları" adlı birgə təşəbbüsü çərçivəsində qəbul etdiyi qərara əsasən, ötənilki mövsümdən etibarən həm parad, həm də himn mərasimlərində pilotlar azyaşlılar tərəfindən müşayiət olunurlar.

Əvvəlcə builki yarış üçün xüsusi tərtib olunmuş kubok təqdim edildi.

(ardı 2-ci səhifədə)

## XV Avropa Gənclər Olimpiya Festivalına 82 gün qalır





## II Avropa Oyunlarına 52 gün qalır

## MOK-un vitse-prezidenti İslam Həmrəyliyi İdman Federasiyasının toplantısında iştirak edir

Aprelin 29-da Türkiyənin Konya şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) Koordinasiya Komissiyasının iclası işə başlayıb.

Tədbirdə İHİF-in və Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə iştirak edir.

İclasda İHİF-in prezidenti Şəhzadə Abdulaziz bin Turki Al Faysal, vitse-prezidentlər Hamad Kalkaba Malboum, Ahmed Seyed Fouli, Nihat Usta və qurumun digər üzvləri iştirak edirlər.

Yığıncaqda 2021-ci il İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək Konya şəhərinin bu yarışa hazırlıq prosesi müzakirə olunacaq.

## Bədii gimnastika üzrə Dünya kuboku yarışları keçirilib

Aprelin 26-27-də Bakıda bədii gimnastika üzrə Dünya kuboku yarışları keçirilib. Yarışda 39 ölkədən ümumilikdə, 200-dən çox gimnast mübarizə aparıb. Üç gün davam edən turnirdə medallar uğrunda 25 qrup komandası və 70-dən çox fərdi gimnast yarışıb.

Azərbaycanı Dünya kuboku yarışlarında fərdi proqramda Zöhrə Ağamirova və Veronika Qudis, qrup hərəkətləri proqramında isə Ayna Cəfərova, Simara Cəfərova, Güllü Ağalarzadə, Narın Qurbanova, Nərmin Cahangirova və Sona Rəhmanova təmsil ediblər.

Aprelin 26-da bədii gimnastika üzrə Dünya kuboku yarışlarının açılış mərasimi keçirilib. Əvvəlcə arenaya iştirak edən ölkələrin bayraqları gətirilib. Sonra Azərbaycanın Dövlət himni səsləndirilib.

(ardı 2-ci səhifədə)

## Anons

*Atletika məşqçilərinin təltif edilməsi mərasimi olub* — Səh. 3

"Olimpiya mədəniyyəti və təhsil" proqramı çərçivəsində tədbir keçirilib — Səh. 3

Minsk estafeti Bakıdan alıb — Səh. 4

Milli Paralimpiya Komitəsinin prezidenti könüllülərlə görüşüb — Səh. 5

*Nazim Həsənov Azərbaycan çempionudur* — Səh. 3

Elmi və bacarığı ilə nüfuz qazanan məşqçi — Səh. 6

*"Neftçi"dən gözlənilməz məğlubiyyət* — Səh. 7

Yarımfinalda yenə də ingilis və ispan hegemonluğu — Səh. 7

## ÇL 1/2 final

### "Tottenhem" - "Ayaks"

(İngiltərə) (Hollandiya)

*30 aprel. İngiltərə. "Hotspur Stadium". Saat 23:00.*

### "Barselona" - "Liverpul"

(İspaniya) (İngiltərə)

*1 may. İspaniya. "Kamp Nou" stadionu. Saat 23:00.*

## Minsk-2019-da 7 karateçimiz yarışacaq

İyunun 21-30-da Belarusun paytaxtı Minskdə keçiriləcək ikinci Avropa Oyunlarında Azərbaycandan daha bir karateçi iştirak edəcək.

İdmançımız Rafiz Həsənov (-67 kq) öz çəki dərəcəsində mübarizə aparacaq 7 idmançı arasına daxil edilib.

Bununla da 50 ölkədən 4 mindən artıq idmançının mübarizə aparacağı ikinci Avropa Oyunlarında idmançılarımızın sayı 7-yə çatıb. Belə ki, ölkəmizi bu yarışda Firdovsi Fərzəliyev (-60 kq), Rafiz Həsənov (-67 kq), Rafael Ağayev (-75 kq), Asiman Qurbanlı (+84 kq) və Roman Heydərov (kata), eləcə də, Nuranə Əliyeva (-50 kq) və İrina Zaretska (-68 kq) təmsil edəcək.

Qeyd edək ki, ikinci Avropa Oyunlarının karate yarışları iyunun 29-30-da Minskin Çijovka-Arena kompleksində keçiriləcək.

## Olimpizm

### BOK qazaxıstanlı idmançılardan medalları qaytarmağı tələb edib

Dopinqdən istifadə etdikləri sübuta yetirilmiş və 2008 və 2012-ci il Olimpiya Oyunlarının mükafatçıları olmuş altı qazaxıstanlı idmançıdan medalları qaytarmaları tələb edilib. Bu barədə xəbəri Qazaxıstan Milli Olimpiya Komitəsinin mətbuat xidməti yayıb.

WORLD ANTI-DOPING AGENCY

2016-cı ildə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İntizam Komissiyası və İdman Arbitraj Məhkəməsi Qazaxıstanın yeddi ağırlıqqaldıranının və iki güləşçisinin nəticələrini ləğv edib. Onlar diskvalifikasiya edilib və medalları qaytarmayan altı idmançıdan mükafatları geri vermələri tələb olunub.

Mətbuat xidmətinin məlumatında qeyd edilib ki, ağırlıqqaldıranlardan bir neçəsi medalları qaytarıblar. Lakin onların çoxu müxtəlif bəhanələrlə bundan imtina ediblər. Hətta bir idmançı - güləşçi Aset Mambetov BOK-un İntizam Komissiyasının diskvalifikasiya qərarı ilə razılaşmadığını və medalı qaytarmayacağını bəyan edib.

Qazaxıstan MOK-un məlumatında bildirilib ki, bu təşkilat BOK-un İntizam Komissiyasının və İdman Arbitraj Məhkəməsinin qərarlarını icra etmək üçün iş aparır, həmçinin qaydalara və qoyulmuş normalara dəqiq əməl edilməsinin tərəfdarıdır.

### CAS Vitali Mutkonun şikayətinə iyunda baxacaq

Beynəlxalq Arbitraj Məhkəməsi (CAS) Rusiya Federasiyası baş nazirinin müavini Vitali Mutkonun apellyasiya şikayətinə iyunun 20-dək baxacaq.

Beynəlxalq Olimpiya Komitəsi (BOK) WADA-nın araşdırmasına əsasən Mutkonun ömürlük olaraq Olimpiya Oyunlarından uzaqlaşdırılması barədə qərar verib. Rusiyalı məmurun dopinq qalmaqalında əli olmadığı müəyyən olunsa da, cavabdeh şəxs kimi cəzalandırılıb.

Vladimir Mutko bu qərardan narazı olduğunu CAS-a apellyasiya şikayəti verməklə bildirib.

Məlumat üçün bildirək ki, rusiyalı məmur Pxençxan-2018 Qış Olimpiadası dövründə ölkəsinin idman, turizm və gənclər naziri olub.

# Bakıda Formula 1 SOCAR Azərbaycan Qran-Prisi başa çatıb

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yarışa baxıblar

*(əvvəli 1-ci səhifədə)*

Açılış mərasiminə Azərbaycan Respublikasının dövlət himninin ifası ilə start verildi.

Dövlət himni tanınmış bəstəkar Azad Vəliyevin yeni aranjimanında səsləndirildi. Himni Azərbaycanın Əməkdar artistləri Bəyimxanım Vəliyeva və Nurlan Növrəsli birlikdə, müvafiq olaraq, muğam və klassik üslublarda ifa etdilər. Onları Əməkdar artistlər - tarda Şəhriyar İmanov, nağarada Kamran Kərimov, violonçeldə Emin Qaliyev və bəm nağarada Hüsaməddin Əzizov müşayiət etdilər.

Dövlət himninin ifa olunmasından sonra Formula 1 Azərbaycan Qran-Prisinin 51 dövrədən ibarət əsas yarışı başladı.

Final mərhələsində hər birində iki pilot olan on komanda mübarizə apardı. Sıralama yürüşünün nəticəsinə əsasən start xəttinə ən yaxın məsafədə "Mercedes" komandasının sürücüləri Luis Hamilton və Valtteri Bottas, "Ferrari" komandasının pilotu Sebastian Fettel dayandılar.

Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

Gərgin idman mübarizəsinin yekununda "Mercedes" komandasının pilotu Valtteri Bottas Formula 1 SOCAR Azərbaycan Qran-Prisinin qalibi adını qazandı. O, 51 dövrəni hamıdan tez - 1 saat 31 dəqiqə 52,942 saniyəyə başa vurdu.

Ondan 1,524 saniyə geri qalan komanda yoldaşı, ötənilki Bakı Qran-Prisinin qalibi Luis Hamilton ikinci oldu. İlk üçlüyü liderə 11,739 saniyəlik fərqlə uduzan "Ferrari" komandasının sürücüsü Sebastian Fettel tamamladı.

"Mercedes" komandası bu qələbə ilə Formula 1 üzrə dünya çempionatları tarixində yeni rekorda imza atdı. Belə ki, ilk dəfə olaraq ardıcıl dörd Qran-Pridə bir komandanın hər iki pilotu yürüşləri ilk iki pillədə başa vurdu.

Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirildi.

Əvvəlcə qalib idmançının və komandanın şərəfinə müvafiq olaraq Finlandiyanın və Almaniyanın dövlət himnləri səsləndirildi.

Qran-Prinin qalibi Valtteri Bottasa kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi.

Dövlətimizin başçısı Konstruktorlar kubokunu "Mercedes" komandasının nümayəndəsinə təqdim etdi.

İkinci yerin sahibi, "Mercedes"in sürücüsü Luis Hamiltona kuboku Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan "Ferrari" komandasının sürücüsü Sebastian Fettelə isə kuboku Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim etdilər.




Beləliklə, Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsindən - Azərbaycan Qran-Prisindən sonra pilotların mübarizəsinə 87 xalla "Mercedes"in sürücüsü Valtteri Bottas liderlik edir. Komanda yoldaşı Luis Hamilton ondan 1 xal geri qalır. "Ferrari" komandasının almaniyalı pilotu Sebastian Fettel 52 xalla üçüncü, "Red Bull Racing Honda"nın hollandiyalı pilotu Maks Ferstappen 51 xalla dördüncü, "Ferrari"nin Monakodan olan sürücüsü Şarl Lekler isə 47 xalla beşinci pillədə qərarlaşıblar.

Konstruktorların yarışında isə "Mercedes" komandası 173 xalla birinci sıradadır. İkinci yerdə qərarlaşan "Ferrari" komandasının 99, üçüncü pillədəki "Red Bull Racing Honda"nın 64 xalı var.

Builki Bakı yarışı Formula 1 idmanı tarixində sayca 1001-ci Qran-Pridir. Çində təşkil olunan Formula 1 üzrə 1000-ci Qran-Pridə qələbə qazanan Luis Hamilton iki yubiley Qran-Prisinin qalibi olan ilk pilot kimi tarixə düşüb. Belə ki, o, 2014-cü ildə Bəhreyndə təşkil olunan 900-cü Qran-Pridə də qələbə qazanıb.

Bakıda Formula 1 Azərbaycan Qran-Prisinə aprelin 26-da start verilib. Yarışın birinci günündə pilotlar Bakı trekində iki sərbəst yürüşdə güclərini sınayıblar. Ötən gün keçirilmiş sıralama yürüşündən sonra isə Qran-Pridə pilotların düzülüşü müəyyənləşib. Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakıda Formula 2 yarışları da keçirilib.

Xatırladaq ki, Formula 1 yarışı Azərbaycanda dördüncü ildir təşkil olunur. 2016-cı ildə keçirilən birinci yarışda - Formula 1 Avropa Qran-Prisində "Mercedes" komandasının almaniyalı pilotu Niko Rosberq qalib gəlib. 2017-ci ildə təşkil olunan Formula 1 Azərbaycan Qran-Prisi "Red Bull Racing Honda" komandasının avstraliyalı pilotu Daniel Rikkardonun qələbəsi ilə başa çatıb. Ötənilki Qran-Pridə isə "Mercedes" komandasının britaniyalı sürücüsü Luis Hamilton qələbə qazanıb.

---

# Bədii gimnastika üzrə Dünya kuboku yarışları keçirilib

*(əvvəli 1-ci səhifədə)*

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov açılış mərasimində çıxış edib. Nazir müavini bildirib ki, respublikamızda digər sahələrlə yanaşı, idmana da diqqət və qayğı göstərilir. O, deyib: "Azərbaycan idmanı sürətlə inkişaf edir, atletlərimiz ən nüfuzlu yarışlarda uğurla mübarizə aparır, ölkəmiz mötəbər turnirlərə peşəkarlıqla ev sahibliyi edir. Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş, məqsədyönlü dövlət siyasəti sayəsində Azərbaycan dünyada qabaqcıl idman dövlətlərindən birinə çevrilib.

İsmayıl İsmayılov deyib ki, son illər müxtəlif səviyyəli beynəlxalq yarışların ölkəmizdə keçirilməsi və idmançılarımızın ən mötəbər yarışlarda əldə etdikləri böyük uğurlar bunun əyani sübutudur.




Azərbaycanın birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın elm, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə çoxşaxəli fəaliyyətində gimnastikanın da mühüm yer tutduğunu vurğulayan nazir müavini bildirib: "Mehriban xanım Əliyevanın 2002-ci ilin oktyabrında Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsi ilə bu sahədə dinamik inkişafın əsası qoyulub. Məqsədyönlü və səmərəli fəaliyyət nəticəsində ölkəmizdə gimnastika yeni inkişaf mərhələsinə qədəm qoyub. Son 16 ildə Bakı bir çox beynəlxalq gimnastika yarışlarına ev sahibliyi edib. Ölkəmizdə gimnastikanın bütün növləri üzrə beynəlxalq yarışların keçirilməsi artıq ənənəyə çevrilib. Azərbaycanda gimnastika növlərinin, o cümlədən bədii gimnastikanın inkişafına böyük təkan verilib və gimnastika həvəskarlarının sayı ildən-ilə artır. Bu yolun davamı olaraq növbəti dəfə təşkil olunan Dünya kubokunda da tamaşaçılar tanınmış bədii gimnastların təqdimatında zərifliyi və əzmkarlığı təcəssüm etdirən maraqlı idman mübarizəsinin şahidi olacaqlar".

Dünya kuboku yaışlarının gərgin və maraqlı idman mübarizəsi şəraitində keçəcəyinə əminliyini bildirən İsmayıl İsmayılov ölkəmizdə idmanın inkişafına göstərdikləri davamlı diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlığını ifadə edib.

Turnirin birinci və ikinci günündə fərdi gimnastlar çoxnövçülük üzrə halqa, top, lent və gürzlərlə, qrup komandaları isə beş top, 3 halqa və 2 cüt gürzlərlə hərəkətlərdə mübarizə aparıblar.

Rusiyalı əkiz bacılar Dina və Arina Averina halqa, top, gürzlər və lentlə hərəkətlərin yekunlarına əsasən fəxri kürsüdə yer alıblar. Dina 85.600 xalla qızıl, Arina isə 79.850 xalla gümüş medal qazanıb. Turnirdə üçüncü yeri ukraynalı Vlada Nikolçenko (78.900 xal) tutub.

Azərbaycan Gimnastika Federasiyasının ən çox icra xalına görə təsis etdiyi "AGF Trophy" mükafatını da Dina Averina alıb. Rusiyalı gimnast, həm də dörd Dünya kuboku yarışlarının üçündə ən yaxşı nəticə göstərdiyinə görə FIG kubokuna da sahib olub. Kuboku Beynəlxalq Gimnastika Federasiyasının Texniki Komitəsinin prezidenti Nataliya Kuzmina təqdim edib.




Təəssüf ki, Azərbaycanı Dünya kuboku yarışlarında təmsil edən gimnastlarımız azarkeşlərini sevindirə bilməyiblər. Belə ki, Zöhrə Ağamirova 73,350 xalla 13-cü, Veronika Qudis isə 66,400 xalla 30-cu yerlə kifayətlənib.

Fərdi gimnastlardan sonra qrup hərəkətləri komandaları arasında çoxnövçülük yarışlarının ən güclüləri müəyyənləşib. Beş top, üç halqa və iki cüt gürzlə yarışların ümumi nəticəsinə görə Yaponiya millisi 49.250 xalla qızıl, Rusiya yığması 48.950 xalla gümüş, Bolqarıstan təmsilçiləri 48.850 xalla bürünc medal qazanıb. Azərbaycan komandası isə 33.100 xalla 19-cu pillədə qərarlaşıb.

Son yarış günündə həm fərdi, həm də qrup hərəkətləri proqramında ayrı-ayrı alətlər üzrə finallar keçirilib. Halqa ilə hərəkətlərdə rusiyalı gimnast Dina Averina (22.000 xal) qızıl medal qazanıb. İsrailli Linoy Aşram (21.850 xal) gümüş, ABŞ təmsilçisi Laura Zenq (20.350 xal) bürünc medala sahib olublar.

Zöhrə Ağamirova isə halqa ilə hərəkətlərdə 16.850 xal toplayaraq 8-ci yeri tutub.

Topla hərəkətlərdə Linoy Aşram rəqiblərindən güclü olub. O, hakimlərdən 21.750 xal alaraq, Dünya kubokunu qazanıb. Dina Averina (21.100 xal) ikinci, Belarus təmsilçisi Katsiarina Qalkina (20.500 xal) üçüncü yerə layiq görülüblər.

Gürzlərlə hərəkətlərdə yenə də rusiyalı əkiz bacılar - Dina və Arina Averinalar ilk iki pillədə qərarlaşıblar. Dina Averina 22.500 xalla qızıl, Arina Averina 22.300 xalla gümüş medal qazanıblar. İlk üçlüyü Ukrayna gimnastı Vlada Nikolçenko (21.400 xal) tamamlayıb.

Lentlə hərəkətlərdə isə Belarus təmsilçisi Anastasiya Salos (20.650 xal) birinci, Arina Averina (20.600 xal) ikinci, Dina Averina isə (20.250 xal) üçüncü olublar.

Fərdi proqramda ayrı-ayrı alətlər üzrə ilk üç yeri tutan gimnastlar mükafatlandırıldıqdan sonra bu il keçirilən dörd Dünya kuboku yarışlarının üçündə ən yaxşı nəticə göstərən gimnastlara Beynəlxalq Gimnastika Federasiyasının (FIG) kubokları təqdim edilib. Halqa və topla hərəkətlərdə kubok Dina Averinaya (Rusiya), gürzlərlə hərəkətlərdə Vlada Nikolçenkoya (Ukrayna), lentlə hərəkətlərdə isə Katrin Tasevaya (Bolqarıstan) verilib.

Fərdi proqramda gimnastların gərgin mübarizəsini qrup hərəkətləri komandaları davam etdiriblər. Beş topla yarışlarda Rusiya yığması (24.850 xal) qızıl medala layiq görülüb. Yaponiya millisi (24.450 xal) II, Ukrayna (24.350 xal) III olub. Üç halqa və iki cüt gürzlə hərəkətlərdə isə Bolqarıstan (25.550 xal) komandası fərqlənərək qızıl, Rusiya (25.250 xal) gümüş, Ukrayna (25.150 xal) isə bürünc medal qazanıb.

Bununla yanaşı, Rusiya yığmasına beş topla, Bolqarıstan millisinə isə üç halqa və iki cüt gürzlə hərəkətlərdə FIG kuboku təqdim olunub. Kuboku Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov təqdim edib.

Məlumat üçün qeyd edək ki, bədii gimnastika üzrə Olimpiya Oyunlarının gümüş medalçısı, 7 qat dünya, 5 qat Avropa çempionu Yana Batırşina Bakıda keçirilən Dünya kuboku yarışlarını izləyib. Əməkdar idman ustası, Rusiya telekanallarında aparıcılıq edən Yana Batırşina həm də bu il Azərbaycanda keçiriləcək bədii gimnastika üzrə dünya çempionatının səfiridir.

**_Səadət Hakıyeva_**



# Atletika məşqçilərinin təltif edilməsi mərasimi olub

Aprelin 25-də Milli Olimpiya Komitəsində (MOK) Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Proqramı, Beynəlxalq Atletika Federasiyaları Assosiasiyasının dəstəyi, Azərbaycan Atletika Federasiyası və MOK-un təşkilatçılığı ilə atletika məşqçiləri üçün 1-ci dərəcəli texniki kursun iştirakçılarının təltif edilməsi mərasimi keçirilib.

Tədbirdə Azərbaycan Atletika Federasiyasının (AAF) prezidenti və Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, AAF-ın vitse-prezidenti Firat Hüseynov, baş katib Məhərrəm Sultanzadə, MOK-un marketinq şöbəsinin rəisi Mehman Kərimov iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan vitse-prezident Çingiz Hüseynzadə məşqçiləri təbrik edərək onlara uğurlar arzulayıb. O, bildirib ki, Milli Olimpiya Komitəsi bundan öncə voleybol, badminton, velosiped idmanı növləri üzrə məşqçilərin texniki kurslarını təşkil edib. Burada kursları yerli mühazirəçilərlə yanaşı, Beynəlxalq Olimpiya Komitəsinin təyin etdiyi idman mütəxəssisləri də tədris ediblər. Ç.Hüseynzadə onu da qeyd edib ki, növbəti ay Milli Olimpiya Komitəsi hakimlər üçün texniki kurs keçirməyi planlaşdırır.

Layihənin əsas məqsədi beynəlxalq dərəcəli atletika məşqçilərinin yetişdirilməsi, onların nəzəri və praktiki biliklərinin genişləndirilməsidir. Məşğələlər Beynəlxalq Atletika Federasiyasının sertifikasiyasından keçmiş mühazirəçiləri Hakim İbrahimov və Qılınc Əhmədov tərəfindən keçirilib. Seminarlara Bakıdan və 8 regiondan ümumilikdə 16 məşqçi qatılıb. Seminarın gedişatında və sonda məşqçilər müxtəlif mərhələlərdə imtahanlar veriblər. İmtahanı uğurla keçmiş məşqçilər gələcəkdə federasiya ilə birgə region üzrə məşqçi kimi çalışacaqlar. Kursun sonunda məşqçilərə sertifikatlar təqdim olunub.

Qeyd edək ki, kurs keçən 16 məşqçidən 14-ü imtahandan keçib. İmtahandan keçən məşqçilər diplomlarla təltif olunub.



# *Nazim Həsənov Azərbaycan çempionudur*

Aprelin 27-dən 29-dək "Sərhədçi" İdman Olimpiya Mərkəzində Azərbaycan Kikboksinq Federasiyasının təşkilatçılığı ilə kikboksinq üzrə 25-ci respublika çempionatı keçirilib. Çoxsaylı idmançının iştirak etdiyi turnir gərgin və maraqlı və idman mübarizələri ilə yadda qalıb. Turnirdə daha çox diqqət cəlb edən görüşlərdən biri isə 69+ kq çəki dərəcəsində 14 yaşlı idmançılar arasında olub. Çünki final qarşılaşmasında Nazim Həsənovun rəqibi özündən çox cüssəli, hündür və böyük idi. Digər tərəfdən isə Nazimin bir gün əvvəl qalib gəldiyi yarımfinal görüşündən dərhal sonra finalda qarşılaşacağı rəqibinə göndərdiyi ismarış finalın son dərəcə gərgin və maraqlı keçəcəyindən xəbər verirdi. Çünki yeniyetmə idmançı bəyan etmişdi ki, rəqibin kimliyindən, təcrübəsindən və gücündən asılı olmayaraq, ona da qalib gəlib Azərbaycan çempionu olacağam. Final döyüşü gözlənildiyi kimi, son dərəcə gərgin və qarşılıqlı mübarizə şəraitində keçib. Göründüyü kimi, rəqib idmançının Nazimdən böyük olmasına baxmayaraq, o, son ana qədər verdiyi sözün üstündə duraraq, peşəkarlığı və bacarığı sayəsində Azərbaycan çempionu adını qazanıb.

Nazim Həsənova kuboku və diplomu Azərbaycan Kikboksinq Federasiyasının sədri, Milli Məclisin deputatı Adil Əliyev təqdim edib.

Xatırladaq ki, İdrak liseyinin şagirdi olan Nazim Həsənov "Naxçıvan" idman klubunun yetirməsidir.

# "Olimpiya mədəniyyəti və təhsil" proqramı çərçivəsində tədbir keçirilib

"Olimpiya mədəniyyəti və təhsil" proqramı çərçivəsində növbəti tədbir aprelin 26-da Nərimanov rayonundakı Məktəb-Lisey Kompleksində keçirilib.

Tədbirdə Rusiyanın Azərbaycandakı səfirliyinin nümayəndələri, Milli Məclisin deputatı, Azərbaycan Kikboksinq Federasiyasının (AKF) prezidenti Adil Əliyev, Nərimanov rayon gənclər və idman idarəsinin rəisi Nəcəf Nəcəfov, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) marketinq şöbəsinin rəisi Mehman Kərimov, Təhsil Nazirliyinin və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təmsilçiləri, müəllimlər və şagirdlər iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Azərbaycan və Rusiya xalqlarının dostluq əlaqələrini, tarixini və adət-ənənələrini əks etdirən rəsmlərdən ibarət sərgiyə baxıblar.

Kompleksin direktoru Fuad Babayev çıxış edərək belə tədbirlərin şagirdlərin biliklərinin və dünyagörüşlərinin artırılması baxımından önəmini qeyd edib. Rusiya xalqının, mədəniyyətinin və incəsənətinin ölkəmizdə çox sevildiyini vurğulayan direktor bildirib ki, tədbirin məqsədi şagirdlərin bu ölkənin tarixi və mədəniyyəti haqqında ətraflı məlumatlandırılmasıdır. F.Babayev ölkəmizdə keçiriləcək Avropa Gənclər Olimpiya Festivalına marağın böyük olduğunu vurğulayaraq, bu tədbirin də yüksək səviyyədə təşkil olunacağına əminliyini bildirib.

Milli Məclisin deputatı, Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Adil Əliyev ölkəmizdə idmanın inkişafına göstərilən yüksək diqqət və qayğı nəticəsində Azərbaycanın dünyada idman dövləti kimi tanındığını vurğulayıb. Qeyd edib ki, Azərbaycanın yüksək səviyyədə ev sahibliyi etdiyi mötəbər turnirlər ölkəmizdə yeniyetmə və gənclərin idmana marağının artmasında mühüm rol oynayır. Federasiya prezidenti bu baxımdan iyulun 21-28-də Bakıda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalının önəmini xüsusi qeyd edib.

Nərimanov rayon gənclər və idman idarəsinin rəisi Nəcəf Novruzov dövlətimizin başçısı İlham Əliyevin idmana göstərdiyi yüksək diqqət və qayğı nəticəsində ölkəmizdə idmanın sürətlə inkişaf etdiyini vurğulayıb.



Sonra məktəbin şagirdləri Azərbaycan-Rusiya dostluğuna aid tamaşalar göstəriblər.

Tədbirdə Avropa Gənclərinin Yay Olimpiya Festivalının proqramına daxil olan gimnastika, güləş, boks idman növləri üzrə ustad dərsləri keçirilib.

Qeyd edək ki, "Olimpiya mədəniyyəti və təhsil proqramı" cari ilin iyulunda Bakıda keçiriləcək Avropa Gənclərinin Yay Olimpiya Festivalının irsi çərçivəsində həyata keçirilir. Proqram Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun maliyyə dəstəyi, Azərbaycan Milli Olimpiya Komitəsinin təşkilatçılığı, Bakı- 2019 Avropa Gənclərinin Yay Olimpiya Festivalının Əməliyyat Komitəsi, həmçinin Təhsil, Gənclər və İdman nazirliklərinin köməyi ilə reallaşdırılır. Proqramın məqsədi Avropa Olimpiya Komitəsinə üzv ölkələrin gəncləri arasında və onların vasitəsilə mədəniyyəti, idmanı və Olimpiya Hərəkatını təşviq etməkdir.

# AZƏRTAC 15-ci Avropa Gənclər Olimpiya Festivalının rəsmi media tərəfdaşıdır

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) və 15-ci Avropa Gənclər Olimpiya Festivalının Əməliyyat Komitəsi (EVENTOC) arasında rəsmi media tərəfdaşlığı haqqında müqavilə imzalanıb.

Müqaviləni AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov və EVENTOC-un korporativ direktoru Elçin Səfərov imzalayıblar.

Tərəfdaşlıq müqaviləsinə əsasən, AZƏRTAC-ın rəsmi saytında festival haqqında bütün məlumatların yerləşdiriləcəyi Bakı-2019 adlı xüsusi bölmə yaradılacaq. Agentlik Avropa Gənclər Olimpiya Festivalını yüksək səviyyədə işıqlandırmaq üçün təcrübəli idman jurnalistləri, həmçinin fotomüxbir və operatorları cəlb edəcək. Oyunlarla bağlı informasiyalar oxuculara 8 dildə, videoxəbərlər isə Azərbaycan və ingilis dillərində təqdim olunacaq.

EVENTOC-un korporativ direktoru Elçin Səfərovun sözlərinə görə, bu, yerli mətbuat qurumları ilə ilk tərəfdaşlıq müqaviləsidir və həm Azərbaycanda, həm də dünyada Avropa Gənclər Olimpiya Festivalının təbliğində mühüm rol oynayacaq. Habelə festivalla bağlı xəbərlərin xarici KİV-lər vasitəsilə də yayılmasına şərait yaradacaq.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov agentliyin Azərbaycanda keçirilmiş bir çox idman tədbirlərinin, o cümlədən ilk Avropa Oyunların, IV İslam Həmrəyliyi Oyunları, Formula 1 SOCAR Qran-Prisi və digər beynəlxalq yarışların işıqlandırılmasında böyük təcrübəyə malik olduğunu vurğulayıb. Qeyd edib ki, AZƏRTAC əvvəlki tədbirlərdə qazanılmış təcrübəyə əsaslanaraq Avropa Gənclər Yay Olimpiya Festivalını da yüksək səviyyədə işıqlandırmaq üçün əlindən gələni edəcək.

İdarə Heyətinin sədri onu da bildirib ki, bu gün AZƏRTAC 150-dək xarici informasiya agentliyi ilə mütəmadi xəbər mübadiləsi aparır və 21 ölkədə müxbir məntəqəsi var. Bu, keçiriləcək festival haqqında informasiyaların geniş coğrafiyada yayılmasında və böyük auditoriyaya çatdırılmasında mühüm rol oynayacaq.

Xatırladaq ki, Avropa Gənclər Olimpiya Festivalı iyulun 21-27-də Bakıda keçiriləcək. Yarışlarda iştirak etmək üçün Azərbaycana 50 ölkədən 3600-dən çox idmançı və texniki nümayəndə heyəti gələcək. Atletlər idmanın on növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

# AMADA-nın rəhbəri Ümumdünya Antidopinq Agentliyinin iclasında iştirak edib

Monrealda Ümumdünya Antidopinq Agentliyinin (ÜADA) Milli Antidopinq Təşkilatları (MADT) üzrə Məşvərət Qrupunun dünya üzrə milli antidopinq təşkilatları üçün maraq kəsb edən məsələlərə həsr olunmuş iclası keçirilib.

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) rəhbəri Şəfəq Hüseynli daxil olmaqla, dünyanın müxtəlif ölkələrini təmsil edən, dopinqlə mübarizə sahəsində tanınmış 10 ekspertdən ibarət qrup qlobal antidopinq ictimaiyyəti daxilində milli antidopinq təşkilatlarına dair ÜADA rəhbərliyinə ekspert məsləhəti və dəstək vermək məqsədilə yaradılıb.

Məşvərət Qrupunun iclasının nəticələri ÜADA rəhbərliyi tərəfindən mayın 16-da beynəlxalq qurumun Təsisçilər Şurasına təqdim ediləcək. Lakin qrupun keçirdiyi müzakirələrin bəzi əsas nəticələri artıq ÜADA tərəfindən bu yaxınlarda mətbuata açıqlanıb. Qrup təmiz idmanın müdafiəsi naminə idmançılarla işin daha da təkmilləşdirilməsinin əhəmiyyətini vurğulayıb və milli antidopinq təşkilatları icmasını idmançıları dopinqlə mübarizəyə necə ən yaxşı cəlb etmək yollarını nəzərdən keçirməyə və müəyyən etməyə çağırıb. Qrup, həmçinin növbəti iclasda müzakirə edilmək məqsədilə milli antidopinq agentlikləri tərəfindən idmançılarla əməkdaşlığa dair müzakirə üçün sənəd hazırlayacaq.

Qrup ÜADA-nın Ümumdünya Antidopinq Məcəlləsinə riayətin monitorinqi üzrə indiyə qədər gördüyü işi yüksək qiymətləndirib və Riayətin Monitorinqi Proqramının bütün antidopinq təşkilatları üçün məcburi tələblərin gücləndirilməsi daxil olmaqla, ÜADA-nı indiyədək öyrənilmiş dərsləri icmal etməyə, proqramı qiymətləndirməyə və tələb olunduqca təkmilləşdirməyə sövq edən həlledici rolunu vurğulayıb.



Məşvərət Qrupu, həmçinin 2021-ci il üçün Antidopinq Məcəlləsi və Beynəlxalq Standartların icmalı üzərində işin gedişi və irəliləyiş münasibətilə ÜADA-nı və məcəllənin tərtibatı üzərində işləyən qrupu təbrik edib, məcəllə və beynəlxalq standartlara təklif edilən dəyişikliklərin qlobal antidopinq proqramının təkmilləşdirilməsində böyük rol oynayacağına inamını bildirib.

Əlavə olaraq, qrup üzvləri antidopinq proqramının inkişafının ÜADA və antidopinq ictimaiyyəti üçün əsas prioritet kimi əhəmiyyətini vurğulayıb və milli antidopinq təşkilatlarını qlobal miqyasda bir-birinə zəruri struktur və proqramların yaradılmasında yardımçı olmağa çağırıb.

Qrup inanır ki, milli antidopinq təşkilatlarının heç bir kənar təsir və ya təzyiq olmadan məcəllə və beynəlxalq standartlara uyğun müstəqil qərar qəbul etmək qabiliyyəti həlledici məsələdir. Milli antidopinq təşkilatları daxil olmaqla, bütün antidopinq təşkilatlarının əməliyyat müstəqilliyi zəruri şərtdir, daha geniş müstəqillik isə can atılmalı bir məqsəd olmalıdır.

# II AVROPA OYUNLARI

# Minsk estafeti Bakıdan alıb

***Panamerika, Panafrika, Asiya Oyunları kimi Avropa Oyunları da Beynəlxalq Olimpiya Komitəsinin (BOK) və Avropa Olimpiya Komitəsinin (AOK) dəstəyi və təşkilatçılığı ilə keçirilir. Hər dörd ildən bir keçirilən qitə Oyunları miqyasına, əhatə dairəsinə görə bütün dünyada tanınır və sevilir. Biz sizə əsasən digər qitə Oyunlarından çox gənc olan Avropa Oyunları, onun tarixi, ev sahibi, nəticələr, eləcə də, bu il Belarusiyanın paytaxtı Minsk şəhərində keçiriləcək II Avropa Oyunları haqqında danışacağıq.***

Dünyada ilk dəfə Avropa Oyunları doğma Azərbaycanda, onun paytaxtı Bakıda keçirilib. Beynəlxalq qurumlar tərəfindən ev sahibliyinin Azərbaycana verilməsi ölkəmizin dünyanın aparıcı idman dövlətlərindən birinə çevrilməsi, idman və Olimpiya Hərəkatının sürətli inkişafının göstəricisidir.

Avropa Oyunlarının keçirilməsi ilə bağlı qərar 2012-ci ilin dekabr ayında Avropa Olimpiya Komitəsinin Romada keçirilən 41-ci Baş Assambleyasında qəbul olunub. Avropa Olimpiya Komitəsinin üzvü olan 49 Milli Olimpiya Komitəsindən 48-nin iştirakı ilə keçirilən gizli səsvermədə 48 səsdən 38 səs toplayan Bakı Avropa Oyunlarına ev sahibliyi hüququnu əldə edib.

Qərar qəbul edildikdən sonra ölkəmizdə dövlət səviyyəsində hazırlıqlara start verilib, təşkilat komitəsi yaradılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Oyunlarının ölkəmizdə təşkilini böyük tarixi uğurumuz kimi səciyyələndirib: “Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında 2015-ci ildə ilk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu böyük tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu, doğrudan da, tarixi hadisədir. Çünki bu vaxta qədər Avropa Olimpiya Oyunları keçirilməmişdir və ilk Oyunların Bakıda keçirilməsi böyük tarixi hadisədir, ölkəmizin böyük uğurudur. Bir daha demək istəyirəm ki, birinci Avropa Oyunlarının Bakıda keçirilməsi barədə qərar böyük tarixi hadisədir. Bu, bizə göstərilən böyük inamdır, böyük etimaddır, böyük hörmətdir, eyni zamanda, üzərimizə düşən böyük məsuliyyətdir. Mən şübhə etmirəm ki, biz bu sınaqdan da uğurla və şərəflə çıxacağıq, bu Oyunları yüksək səviyyədə keçirəcəyik”. Ölkənin birinci xanımı Mehriban Əliyeva isə Avropa Oyunlarının Avropa idmanında tarixi hadisə kimi qiymətləndirərək bu yarışların təşkilinin Azərbaycanın ənənələrini, mədəniyyətinin və tarixinin daha da tanınması baxımından böyük əhəmiyyət kəsb edəcəyini vurğulayıb.

2013-cü ildə dövlət rəhbərinin Sərəncamı ilə ölkəmizdə Bakı-2015 Avropa Oyunlarının keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılıb. Təşkilat Komitəsinə rəhbərlik birinci vitse-prezident, Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü Mehriban xanım Əliyevaya həvalə edilib. Təşkilat Komitəsinin sədrinin qərarı ilə yaradılan Bakı-2015 Avropa Oyunları Əməliyyat Komitəsi (BAOƏK) AOK-la birgə bu Oyunların təşkilini uğurla həyata keçirib. BAOƏK-nın baş icraçı direktoru gənclər və idman naziri cənab Azad Rəhimov və baş əməliyyat direktoru isə Saymon Kleq olub.

## Azərbaycan I Avropa Oyunları ilə tarix yazdı

2015-ci ildə iyunun 12-28-də Bakıda keçirilən I Avropa Oyunları çox yüksək səviyyədə təşkil edilib və bir sıra mühüm məqamlarla yadda qalıb. AOK-un o vaxtkı prezidenti Patrik Hikki yarışların yüksək səviyyədə təşkilindən məmnun qaldığını belə ifadə edib: “Bir çox ev sahibi olan şəhərlər bu cür tədbirlərə hazırlıq üçün beş-yeddi il sərf edir. Bakı isə cəmi otuz aylıq qısa zaman kəsiyində bu cür möhtəşəm qitə miqyaslı Oyunlara yüksək səviyyədə ev sahibliyi etməklə Avropa Olimpiya hərəkatını şərəfləndirdi”.

Antik və müasir Olimpiya Oyunlarının vətəni Yunanıstan və paytaxt Afina olduğu kimi, ilk Avropa Oyunlarının da vətəni məhz Odlar Yurdu Azərbaycan və Bakı oldu. Avropa Oyunları 2015-ci ilin ən möhtəşəm tədbirlərindən biri kimi tarixə düşdü. Avropa Oyunları həm də Azərbaycanın qitə ölkələri ilə iqtisadi-siyasi və idman sahəsində əməkdaşlığının güclənməsinə, turizmin inkişafına əlverişli zəmin yaratdı.

Bakı-2015 Avropa Oyunlarının rəsmi loqosu azərbaycanlı rəssam Adəm Yunisov tərəfindən tərtib edilən və Alov, Su, Simurq quşu, Xalı və Narı özündə əks etdirən beş başlıca elementi ifadə edirdi. Loqo ölkənin təbii gözəlliklərini, mədəniyyət və irsini, o cümlədən Avropanın ən sürətlə böyüyən şəhərlərindən biri kimi Bakını təsvir edirdi.

Avropa Oyunlarının rəsmi simvolları isə Ceyran və Nar idi. Ceyran qonaqlara Azərbaycanın zəngin irsini tərənnüm etməklə, Oyunların mədəniyyət elçisi rolunda çıxış edirdi. Bakı-2015 Avropa Oyunlarında 15 min könüllü (“alovqoruyan”) yarış iştirakçılarına yüksək səviyyədə xidmət göstərdi. London-2012 Olimpiya Oyunlarının çempionu Keti Teylor, məşhur basketbolçu Domoviç Bulut, avarçəkmə üzrə Pekin-2008-in gümüş medalçısı Rene Holten Poulsen, gimnast Kseniya Mustafayeva Bakı-2015 Avropa Oyunlarının beynəlxalq idman elçiləri idilər.

Birinci Avropa Oyunlarında dünyanın 50 Avropa ölkəsindən 6000-dək idmançı 17 gün ərzində gərgin mübarizə apardı. Proqrama daxil edilən 20 idman növündən 16-sı Olimpiya, 4-ü isə qeyri-Olimpiya idman növü idi. 12 Olimpiya idman növündə keçirilən yarışlar Rio-2016 Olimpiadasına lisenziya xarakteri daşıyırdı.

Yarışların nəticələrinə görə, I Avropa Oyunlarının qalibi adını Rusiya komandası qazandı. Qonşu ölkə yarışlara 164 (79 qızıl, 40 gümüş və 45 bürünc) medalla yekun vurdu. Azərbaycan I Avropa Oyunlarına uğurlu ev sahibliyi etməklə yanaşı, həm də gözəl nəticə əldə etdi. İdmançılarımız yarışları ikinci yerdə başa vurmaqla, ümumilikdə, 56 medal (21 qızıl, 15 gümüş və 20 bürünc) medal qazandılar. Böyük Britaniya yığması isə 47 (18 qızıl, 10 gümüş və 19 bürünc) medalla 3-cü oldu.

Ölkəmiz Avropa Oyunlarından sonra 2016-cı ildə Şahmat Olimpiadasına və Formula-1 üzrə Avropa Qran-Pri yarışlarına, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi. Gələn il isə ölkəmizdə futbol üzrə Avro-2020 matçları təşkil ediləcək. Bu mötəbər yarışların ölkəmizdə keçirilməsi Azərbaycanın dünyada artan siyasi, iqtisadi və idman sahəsindəki nüfuzunun göstəricisidir.





## Minsk-2019 Avropa Oyunlarında atletlər 15 idman növündə mübarizə aparacaqlar

Sayca, II Avropa Oyunları isə 2019-cu il iyunun ayının 21-30-da Belarusun paytaxtı Minskdə keçiriləcək. Məlumat üçün qeyd edək ki, II Avropa Oyunlarının əvvəlcə Hollandiyada keçirilməsi planlaşdırılıb. Hətta yarışların Amsterdam, Haaqa, Eyndhoven, Rotterdam və Utrext şəhərlərində təşkili barədə razılıq əldə olunub. Lakin Hollandiyanın ev sahibliyindən imtina etməsindən sonra Belarus (Minsk), Böyük Britaniya (Qlazqo), Polşa (Poznan) və Rusiya (Kazan və Soçi) mübarizəyə qoşulub. 2015-ci ilin noyabr ayında Rusiya II Avropa Oyunlarının ev sahibi seçilsə də, WADA-nın dopinq qalmaqalı səbəbindən bu hüquqdan məhrum olub.

Belarus paytaxtının II Avropa Oyunlarına ev sahibliyi ilə bağlı qərar AOK-un 2016-cı il oktyabrın 21-də Belarusda keçirilən 45-ci Baş Assambleyasında qəbul edilib. 50 ölkənin Milli Olimpiya Komitəsinin təmsil olunduğu iclasda Minskin növbəti Oyunlara ev sahibliyi etməsinə dair qərar verilib. Minsk-2019 Avropa Oyunlarının keçirilmə vaxtı AOK-un Skopye şəhərində keçirilən 38-ci seminarında təsdiqlənib.

Belarusun baş naziri Andrey Kobyakov Minsk-2019-un Təşkilat Komitəsinin sədri seçilib. Belarus Milli Olimpiya Komitəsinin baş katibi Georgi Katulin icraçı direktor vəzifəsinə təyin alıb. Birinci vitse-prezident Andrey Astaşeviç isə Minsk-2019-un nümayəndəsi kimi kooperativ üzv qismində Avropa Olimpiya Komitəsinin icraçı komitəsinin heyətinə daxil edilib. Oyunların idman direktoru Sergey Şablıko təyin olunub.

II Avropa Oyunlarında dünyanın 50 ölkəsindən 4000-dən artıq idmançı 199 dəst medal uğrunda yarışacaq. Badminton, boks, cüdo, kayak və kanoe qayıqlarında avarçəkmə yarışları Avropa çempionatı səviyyəsində keçiriləcək.

Oyunların proqramına 15 idman növü daxil edilib ki, onun 8-i Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya verir. Bu da Bakı-2015 Avropa Oyunları ilə müqayisədə azdır. Belə ki, I Avropa Oyunlarının proqramında nümayiş etdirilən 20 idman növündən 12-si olimpiadaya təsnifat xarakteri daşıyırdı.

II Avropa Oyunlarının açılış və bağlanış mərasimləri Minsk şəhərindəki “Dinamo” stadionunda keçiriləcək. Bəzi yarışlar Oyunların rəsmi açılışından bir gün əvvəl - iyunun 20-də başlaya bilər. Əvvəllər Belarusun futbol üzrə milli komandasının istifadəsində olan və 1980-ci ildə Yay Olimpiya Oyunlarının turnirlərini qəbul edən “Dinamo” stadionda yüngül atletika yarışları keçiriləcək.

“Minsk-Arena” stadionu isə gimnastika üzrə yarışların məkanı kimi təsdiq edilib. 15 min azarkeş üçün nəzərdə tutulan çoxfunksiyalı meydançada idman gimnastikası və bədii gimnastika, akrobatika, batut yarışları keçiriləcək. Arena 2013-cü il dünya çempionatında istifadə edilən velodromun da daxil olduğu üç binadan ibarət kompleksdir. Burada, həmçinin trekdə yarış və badminton üzrə yarışların təşkili nəzərdə tutulur.

Şose yarışları şəhərin küçələrində keçiriləcək, Minskin mərkəzində 2 min tamaşaçı tutumuna malik “Palova-Arena” 3x3 basketbol yarışlarına ev sahibliyi edəcək. Boks turnirinə isə “Uruçye” İdman Sarayı, sərbəst, yunan-Roma, qadın güləşləri və sambo yarışlarını “Çijovka-Arena” qəbul edəcək. Sprinter kanoesində yarışlar “Zaslavle” avarçəkmə kanalında, karate və cüdo - İdman Sarayında, çimərlik futbolu və çimərlik voleybolu - Olimpiya İdman Kompleksində, atıcılıq - “Sporting Club”da, stolüstü tennis - “Falcon Club”da, kamandan oxatma - “Minsk” futbol klubunun meydanlarında təşkil olunacaq.

Minsk-2019-da iştirak edən idmançılar tələbə şəhərciyində yerləşdiriləcək. Avropa Olimpiya Komitəsi idmançıların və Milli Olimpiya komitələrinin rəsmi nümayəndələrinin yol xərclərini üzərinə götürəcək, Minsk-2019 Təşkilat Komitəsi isə qəbul edən tərəf kimi şəhərdə qalmaq xərclərini ödəyəcək.

II Avropa Oyunları dünyanın 100-dən çox telekanalı vasitəsilə yayımlanacaq.

## “Arzularının arxasınca get”

Minsk-2019 II Avropa Oyunlarında idmançıların dopinq testlərinə Avropa Olimpiya Komitələri (EOC) nəzarət edəcək. idmançıların dopinq testləri Vyana laboratoriyasına göndəriləcək. AOK laboratoriya nəticələrini alacaq və böyük ehtimalla Ümümdünya Antidopinq Agentliyi (WADA) nəticələri bilməyəcək. Nümunələr 10 il ərzində saxlanılacaq.

Minsk-2019 Avropa Oyunlarının şüarı “Bright Year, Bright You”dur. (“Parlaq il, Parlaq sən”). Oyunların talismanı tülkü balası və loqosu isə slavyan xalqının mədəniyyətində mühüm rol oynayan ayıdöşəyi bitkisidir. Loqotipin yaradılması ideyası “Arzularının arxasınca get” şüarından yaranıb. Avropa Oyunlarının rəmzi olan İvana Kupala yay gecəsində (yay gün dönümü şərəfinə bayram) açılan ayıdöşəyi bitkisi haqqındakı əfsanəni xatırladır. Rəvayətə görə, onu tapan hər kəsin bütün istək və arzularını yerinə yetir. Bununla əlaqədar loqonun rəsmi təqdimatı zamanı günəş və yerin çiçəklənməsinə həsr olunmuş qədim xalq bayramlarından olan Kupalye bayramı qeyd olunacaq.

Minsk-2019 II Avropa Oyunları üçün bilet satışına xeyli vaxtdır start verilib. Biletləri www.minsk2019.ticketpro.by saytı vasitəsilə əldə etmək mümkündür. Qiymətlər 5 Belarus rublundan 50 belarus rublunadək (əcnəbi vətəndaşlar üçün 2 avrodan 20 avroyadək) qoyulub. Biletlər bir neçə kateqoriyada - “Standard”, VIP, açılış və bağlanış mərasimləri üçün hazırlanıb. Açılışa 150 - 300 rubla, bağlanışa 70 - 150 rubla tamaşa etmək mümkündür.II Avropa Oyunları oturacaq yerlərinin ümumi sayı 375 min olacaq. Lakin tələb və idman növünün populyarlığından asılı olaraq, sayı 535 minədək artırmaq mümkündür. Biletlərin satılacağı idman sessiyalarının ümumi sayı isə 111-dir.

Azərbaycanı Minsk-2019 Avropa Oyunlarında təmsil edəcək nümayəndə heyətinə Azərbaycan Milli Olimpiya Komitəsinin beynəlxalq əlaqələr idarəsinin müdiri Anar Bağırov başçılıq edəcək.

*Səadət Hakıyeva*

# Milli Paralimpiya Komitəsinin prezidenti könüllülərlə görüşüb



Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov mayın 13-14-də "Ruhun zəfəri" şüarı altında Bakıda keçiriləcək paracüdo üzrə beynəlxalq Qran-Pri yarışına dəstək verəcək "Bir könüllü" təşkilatının üzvləri ilə görüşüb. Tədbirdə əlilliyi olan könüllülər, Qarabağ qaziləri və Təhsil Nazirliyinin "Bir könüllü" proqramının üzvləri iştirak ediblər. Azərbaycan Milli Olimpiya Komitəsində reallaşan görüşdə AMPK-nın prezidenti ölkəmizdə paralimpiya hərəkatının sürətli inkişafı, uşaq paralimpiya hərəkatı, Prezident İlham Əliyevin bu hərəkata və paralimpiyaçılara göstərdiyi diqqət və qayğı haqqında geniş məlumat verib. Komitə prezidenti mayın 13-14-də paytaxt Bakının ilk dəfə "Ruhun zəfəri" şüarı altında paracüdo üzrə beynəlxalq Qran-Pri yarışına ev sahibliyi edəcəyini vurğulayıb. O, qeyd edib ki, Tokio Yay Paralimpiya Oyunlarına lisenziya xalları qazandıran bu yarışa 36 ölkədən 345 iştirakçı qatılacaq. Onun sözlərinə görə, paracüdo üzrə Bakı Qran-Prisi əlillərin idman yarışı olduğu üçün, təşkilati işlərə fiziki məhdudiyyətli insanlar da cəlb olunub. Komitə prezidenti, bu tədbirin tamamilə inklüziv olması üçün tədbirlər görüldüyünü bildirib.

"Yarışın keçirilməsində əlilliyi olan könüllülər də yaxından iştirak edəcək. Bundan əlavə, yarış keçirilən günlərdə Heydər Əliyev adına İdman Arenasında fiziki məhdudiyyətli şəxslərin əl işlərindən ibarət sərgi-satış yarmarkası da təşkil ediləcək. Bu yarışın təşkil olunmasında tələbə könüllülərin zəhməti də yüksək qiymətləndirilməlidir", - deyə İ.Rəhimov əlavə edib.

Komitə prezidenti yarışa hazırlıq mərhələsində görülən işlərdən də söz açıb. Onun sözlərinə görə, Bakı Qran-Prisinə həsr olunmuş plakat müsabiqəsi keçirilib. Əlil idmanının təşviqinə həsr olunmuş müsabiqənin qaliblərinə pul mükafatları verilib. O, qeyd edib ki, bu idman tədbirinə həsr olunmuş "Paint Ball" yarışı da təşkil edilib. Turnirdə Paralimpiya Komitəsi, ASAN Radio, "Bir könüllü" proqramı və Qarabağ qazilərindən ibarət komandalar yarışıblar. Qarabağ qaziləri bu yarışda qalib gəliblər.

İ. Rəhimov diqqətə çatdırıb ki, olimpiyaçı və paralimpiyaçı idmançılarımızın yarışlarda paralel çıxışı ilk dəfə Bakıda keçirilən Bakı-2015 birinci Avropa Oyunlarında və sonradan Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarında gerçəkləşib: "Bu yarışlar əlil idmanının beynəlxalq və milli səviyyədə təşviqinə misilsiz töhfə verib. Belə humanist qərarları qəbul etdikləri üçün ölkə Prezidenti İlham Əliyevə və hər iki Oyunların Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya öz təşəkkürümüzü bildiririk".

İlqar Rəhimov yarışın keçirilməsində göstərdiyi dəstəyə görə, Beynəlxalq Cüdo Federasiyasına, Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyasına və Azərbaycan Cüdo Federasiyasına minnətdarlığını bildirib.

Milli Paralimpiya Komitəsinin prezidenti qeyd edib ki, ölkəmizdə könüllülər institutu əsasən 2015-ci ildə birinci Avropa Oyunları ərəfəsində yaradılıb və hazırda geniş vüsət alıb. O, keçiriləcək tədbirə verdikləri dəstəyə görə "Bir könüllü" proqramının rəhbərliyinə və hər bir üzvünə öz təşəkkürünü bildirərək onlara uğurlar arzulayıb.

Daha sonra AMPK-nın baş katibi Kamal Məmmədov və "Bir könüllü" proqramının meneceri Canoğlan İlyasov çıxış edərək tələbə könüllülərə yarış barədə daha ətraflı məlumat veriblər.

* * *

Azərbaycanın pouerliftinq idman növü üzrə Paralimpiya Milli Komandasının üzvü Şamo Aslanov Macarıstanın Eger şəhərində keçirilən Dünya Kubokunda qızıl medal qazanıb.

107+ kq çəki dərəcəsində yarışan idmançımız 215 kiloqram çəkini qaldıraraq fəxri kürsünün birinci pilləsinə yiyələnib.

Eyni çəki dərəcəsində ikinci yeri 215 kiloqramlıq çəki ilə Səudiyyə Ərəbistan Krallığından olan idmançı Əl Najim Xalid qazanıb. Onun bədən çəkisi Şamo Aslanovun bədən çəkisindən yüksək olduğuna görə, eyni çəkini qaldırsalar da, birinci yerə Şamo Aslanov layiq görülüb.

Üçüncü yerə isə 208 kiloqram çəki ilə gürcüstanlı idmançı Akaki Cintçaradze layiq görülüb.

Xatırladaq ki, bir neçə gün öncə eyni yarışda 49 kiloqram çəki dərəcəsində yarışan idmançımız Pərvin Məmmədov qızıl medala layiq görülmüşdü.

Ötən gün isə idmançımız Elşən Hüseynov qızıl, Nurlan Babacanov isə bürünc medala yiyələnib.

Bu qələbə ilə idmançılarımız Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarında iştirak etmək şanslarını artırıblar.

* * *

Azərbaycanın üzgüçülük idman növü üzrə paralimpiya milli komandasının üzvü Roman Saleh Birləşmiş Krallığın Qlazqo şəhərində keçirilən dünya seriyasında ikinci medalını qazanıb.

Roman Saleh yarışın son günündə "Butterfly" növündə 100 metr məsafədə 58.63 saniyəlik nəticə göstərərək bürünc medala sahib olub.

Xatırladaq ki, idmançımız yarışın ilk günlərində üzgüçülüyün arxası üstə növündə 100 metr məsafədə 1:00:61 nəticə ilə qızıl medal qazanmışdı.

## Ölkəmiz stolüstü tennis üzrə beynəlxalq turnirə ev sahibliyi edəcək

Mayın 2-3-də Bakı İdman Sarayında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş stolüstü tennis üzrə yeniyetmələr arasında beynəlxalq turnir keçiriləcək.

2004-2008-ci illər təvəllüdlü və daha kiçik yaşlı idmançıların iştirak edəcəyi turnirdə Azərbaycanla yanaşı, xarici ölkələrin təmsilçiləri də mübarizə aparacaqlar. Yarışda ümumilikdə 6 ölkədən 70-dən çox idmançı gücünü sınayacaq.

## Cüdoçularımız təlim-məşq toplanışında olublar



Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan cüdo üzrə beynəlxalq "Böyük dəbilqə" turniri və digər nüfuzlu yarışlara hazırlıqlarını davam etdirən Azərbaycan milli komandasının üzvləri Yaponiyada təlim-məşq toplanışını başa vurublar.

Tokioda üç həftə davam edən məşqlərdə millimizin aparıcı cüdoçuları iştirak ediblər. İdmançılarımız baş məşqçi Ruslan Maşurenkonun və məşqçi Elxan Məmmədovun rəhbərliyi ilə gündə iki dəfə təlim-məşq keçib, verilən tapşırıqları yerinə yetiriblər. Təlim-məşq toplanışına idmançılarımızla yanaşı, yaponiyalı cüdoçular da qatılıblar.

"Böyük dəbilqə" turniri mayın 10-da Heydər Əliyev adına İdman Sarayında start götürəcək. Mötəbər yarış üç gün davam edəcək.

## "Vüqar Həşimov" şahmat klubu təsis edilib



Azərbaycanın məşhur şahmatçısı, mərhum qrossmeyster Vüqar Həşimovun adını daşıyan klub təsis edilib.

Vüqar Həşimov Şahmat Fondu tərəfindən təsis olunan klubun heyətinin formalaşdırılmasına başlanıb. İlkin danışıqlardan sonra Azərbaycan millisinin üzvləri Rauf Məmmədov və Qədir Hüseynov komanda yoldaşlarının adını daşıyan klubda çıxış etməyə razılıq veriblər. Şahmatçılar Vüqar Həşimov klubunda mübarizə aparmağı özlərinə borc bildiklərini deyiblər.

"Vüqar Həşimov" klubu Monteneqroda keçiriləcək Avropa Çempionlar Kubokunda çıxış edəcək. Klubun tam heyəti yaxın günlərdə ictimaiyyətə açıqlanacaq.

## Xüsusi olimpiyaçı qızlar arasında voleybol yarışları



Xüsusi olimpiyaçı qızlar arasında voleybol üzrə respublika seçmə yarışlarının qalibləri müəyyənləşib.

Turnir Xəzər rayonu 4 nömrəli xüsusi internat məktəbində keçirilib.

Yekun nəticələrə görə, birinci divizionda Xəzər rayonu valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2 nömrəli ümumi orta internat məktəbinin komandası fəxri kürsünün ən yüksək pilləsində yer alıb. İkinci divizionda isə birinci yeri Sabunçu rayonu 170 saylı inklüziv sinifli tam orta məktəbin komandası tutub.

Qaliblərə və mükafatçılara medal və diplomlar təqdim edilib.

## Basketbolçuların paytaxt birinciliyi keçirilir

Basketbol üzrə açıq Bakı birinciliyi keçirilir. Yarışda müxtəlif yaş qrupları üzrə ümumilikdə 27 komanda təmsil olunur. Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasında (AZBİTA) keçirilən açıq birincilikdə həm oğlanlar, həm də qızlar iştirak edirlər.

Aprelin 6-da start götürən açıq Bakı birincilik mayın 5-də başa çatacaq.

Qeyd edək ki, yarışın baş hakimi Zərbəli Saibcanov, baş katibi isə Aydın Ağaliyevdir.



## Gömrük orqanları arasında futzal üzrə ənənəvi çempionatın mərhələ oyunları başa çatıb

*Aprelin 28-də Azərbaycan Texniki Universitetinin idman zalında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və gömrük xidmətinin yaradılmasının 27-ci ildönümünə həsr olunmuş futzal idman növü üzrə gömrük orqanları arasında ənənəvi çempionatın mərhələ oyunları başa çatıb.*



Çempionatın təşkilində əsas məqsəd gömrük orqanlarında çalışan əməkdaşların sağlamlığının və fiziki hazırlığının inkişaf etdirilməsi, kütləviliyin təmin edilməsidir. Yarışda ümumilikdə iki qupda 12 komanda dairəvi sistem üzrə mübarizə aparıb. A qrupunda Gömrük Hospitalı, "Azərterminalkompleks" Birliyi, Sumqayıt Baş Gömrük İdarəsi, Cənub Baş Gömrük İdarəsi, Aksizli mallar üzrə Baş Gömrük İdarəsi, Şimal Ərazi Baş Gömrük İdarəsi, B qrupunda isə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi, Qərb Ərazi Baş Gömrük İdarəsi, Hava Nəqliyyatında Baş Gömrük İdarəsi, Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı Baş Gömrük İdarəsinin komandaları iştirak edib. Çempionatın birinci mərhələsi dairəvi, ikinci (dörddəbir) və üçüncü (yarımfinal) mərhələsi isə Olimpiya sistemi əsasında keçirilib. Gərgin keçən qarşılaşmalardan sonra finala vəsiqə əldə etmiş komandalar müəyyənləşib. Mayın 10-da Azərbaycan Texniki Universitetinin idman zalında keçiriləcək final mərhələsində üçüncü yer uğrunda Bakı Baş Gömrük İdarəsinin komandası Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin komandası ilə qarşılaşacaq. Birinci və ikinci yerlər uğrunda isə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin komandası üz-üzə gələcək.

Çempionatda ilk üç yeri tutmuş komandaların üzvləri müvafiq kubok, diplom, medal və hədiyyələrlə mükafatlandırılacaqlar. Dördüncü yeri tutmuş komandaya fəxri diplomlar təqdim olunacaq. Eləcə də, turnirdə fərqlənən 6 oyunçu və 2 hakim müxtəlif nominasiyalar üzrə təltif ediləcək. Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası tərəfindən təsis edilmiş "Ədalət prinsiplərinə sadiq hakim", "Ədalət prinsiplərinə sadiq idmançı", "Ədalət prinsiplərinə sadiq məşqçi" nominasiyaları üzrə mükafatlar da təqdim olunacaq.

Çempionatın ikinci və üçüncü mərhələsinin nəticələrini oxucularımıza təqdim edirik:

**27 aprel, 2019-cu il (Dörddəbir final)**

1. "Azərterminalkompleks" Birliyi-Hava Nəqliyyatında Baş Gömrük İdarəsi 2:3

2. Sumqayıt Baş Gömrük İdarəsi-Bakı Baş Gömrük İdarəsi 2:5

3. Aksizli mallar üzrə Baş Gömrük İdarəsi-Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi 4:9

4. Şimal Ərazi Baş Gömrük İdarəsi-Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi 3:5

**28 aprel 2019-cu il (Yarımfinal)**

1. Hava Nəqliyyatında Baş Gömrük İdarəsi-Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi 1:5

2. Bakı Baş Gömrük İdarəsi-Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi 2:3

Qarabağ idmanı

# Elmi və bacarığı ilə nüfuz qazanan məşqçi

Namiq Həsən oğlu Babayev 1945-ci il aprelin 8-də Şuşa şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1952-1963-cü illərdə Şuşa şəhər 1 nömrəli orta məktəbdə təhsil alıb. Məktəbi bitirdikdən sonra Namiq Babayev 1964-cü ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuşdur. Lakin ali təhsili yarımçıq qoyaraq hərbi xidmətə yollanmışdır. Əsgəri xidmətini başa vurduqdan sonra təhsilini qiyabi şöbədə davam etdirərək, 1973-cü ildə həmin ali təhsil ocağının Azərbaycan dili və ədəbiyyatı fakültəsinin məzunu olmuşdur. Həmin ərəfədə Nazim Babayev görkəmli ədəbiyyatçı, Füzulişünas, əruz vəzninin mahir bilicisi Əkrəm Cəfərlə tanış olur. Bu tanışlıq onun həyatında yeni bir səhifə açır. Bu illər ərzində müxtəlif vəzifələrdə işləyən Nazim Babayev də Əkrəm Cəfər kimi Füzulişünas olmaq fikrinə düşür. Bunun üçün də o, sənədlərini aspiranturaya təqdim edir. 1980-ci ildə Namiq müəllim Azərbaycan Respublikası Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı olur. 1985-ci ildə Namiq Babayev "Məhəmməd Füzuli və XX əsr Azərbaycan romantizmi" mövzusu əsasında namizədlik dissertasiyasını müdafiə edir, filologiya elmlər namizədi dərəcəsinə layiq görülür. Namiq Babayev elmlə yanaşı, bədən tərbiyəsi və idmana da böyük maraq göstərirdi. O, orta məktəbdə təhsil aldığı illərdə idmanın voleybol, basketbol və stolüstü tennis növləri ilə məşğul olmuşdur. Namiq Babayev Şuşanın voleybol və tennis yığma komandalarının üzvü kimi bir çox mötəbər yarışların iştirakçısı olub.

O, 1962-ci ildə keçmiş DQMV-i üzrə keçirilən şəxsi stolüstü tennis yarışlarında gənclər arasında birinci yeri tutaraq, vilayət kubokunu qazanmışdı. Namiq müəllim 4 saylı orta məktəbdə pedaqoji fəaliyyət göstərməklə bərabər, məktəbdə təşkil edilmiş stolüstü tennis dərnəyində məşqçilik edib. Onun bu ictimai əsaslarla keçdiyi məşqlərdən sonra Şuşa rayon Təhsil Şöbəsi nəzdində fəaliyyət göstərən Uşaq Gənclər İdman Məktəbinin rəhbərliyinin təqdimatı əsasında UGİM-də stolüstü tennis bölməsi açılmışdı. Namiq Babayev də həmin məktəbdə stolüstü tennis üzrə məşqçi vəzifəsinə işə qəbul edilmiş və ömrünün sonuna kimi ikinci iş yeri olmaqla orada fəaliyyət göstərmişdir.



Ümumiyyətlə, Şuşada stolüstü tennis idman növünün yaranması Namiq Babayevin adı ilə bağlıdır. Onun yetirmələri Şuşa çempionları, DQMV-nin birinciliklərində iştirak edərək mükafatalayiq yerlər tutmuşlar. Hətta Şəki şəhərində keçirilən respublika birinciliyində stolüstü tennis yarışlarında tennisçilərimiz fəxri kürsüdə yer alıb. Onlar rayon rəhbərliyi, o cümlədən İdman komitəsi və komsomol təşkilatları tərəfindən fəxri fərman, diplom və müxtəlif hədiyyələrlə mükafatlandırılmışlar. Bu da rayonda stolüstü tennis idman növünə marağın daha da artmasına təkan vermişdir. Tennisçilərdən Arzu Ağayev, Fərhad Əzimov, Həbib Hüseynov, Tofiq Qurbanov, Fazil Ələkbərov, Tahir İsmayılov, İslam Süleymanov, Rövşən Abbasov və başqaları onun yetirmələridir.



Nazim Babayev məşqlərdə öz yetirmələrinə bir sıra məsləhətlər verirdi. "Mübarizə başlayan kimi hücuma keçmək lazımdır" fikirini tez-tez səsləndirən Nazim müəllim deyirdi: "Ağ elastik top idmançıların iradəsinə tabe olaraq gözlənilməz sıçrayışlar edir. Bəzən zərblə stola dəyib xeyli kənara sıçrayır, bəzən də stolun üstü ilə sürüşür. Bu vaxt heç kəs onu qaytara bilməz. Stolüstü tennis üzrə oyun gərgin olduqda, hər iki idmançı güclü hücuma keçərək eyni zamanda ümidsiz topları oyuna daxil etdikdə, yarışa baxmaq çox maraqlı olur. Belə hallarda stolüstü tennis də cəld hərəkətlər tələb edən əsl yarışlara çevrilir".

Namiq Babayevin vaxtı ilə dediyi fikirlər özünü doğrultdu. O, bildirirdi ki, bütün məktəblərdə, ümumiyyətlə, bütün tədris ocaqlarında, təşkilatlarda, idarə və müəssisələrdə ən azı 2 stolüstü tennis stolu olmalıdır.

Namiq Babayev sözün əsl mənasında həyata qurmaq və yaratmaq üçün gələn insanlardandır. O, əsl alim, müəllim və idmançı idi.

1991-il sentyabrın 8-də amansız ölüm, istedadının çiçəkləndiyi bir vaxtda Namiq Babayevin həyatına son qoydu. Namiq Babayevin xatirəsi heç vaxt unudulmayacaq.

*Əbülqasım Novruzov,*
*Şuşa Uşaq Gənclər İdman- Şahmat Məktəbinin direktoru*

REDAKSİYANIN POÇTUNDAN

## Astara rayonunun komandası bürünc medal qazanıb

Aprelin 24-28-də Xaçmaz rayonunda Yeniyetmələrin XII Respublika Oyunlarının proqramına daxil olan atletika üzrə 2006-2007-ci illər təvəllüdlü idmançılar arasında final yarışı keçirilib.

Qeyd edək ki, komandamız aprelin 3-7-də Cəlilabad rayonunda keçirilən respublika zona yarışında II yeri tutaraq yarışların final mərhələsində iştirak etmək hüququ qazanıb. Final mərhələsində də layiqli mübarizə aparan Astara rayonunu təmsil edən 10 nəfərdən ibarət komandamız yekunda III yeri tutaraq bürünc medala layiq görülüb.

Qeyd edək ki, idmançılarımızı yarışa Astara şəhər 2 saylı tam orta məktəbin fiziki tərbiyə müəllimləri Afət Əkbərov, Nizami Səmədov hazırlayıb.

Aprelin 26-da Astara rayon Gənclər və İdman İdarəsinin rəisi Ərçə Əliyev uğur əldə etmiş atletlər və məşqçilərilə idarədə görüş keçirib, onları qələbələri münasibəti ilə təbrik edib və yeni uğurlar arzulayıb.

*Elnur Qurbanlı,*
*Astara RGİİ-nin baş məsləhətçisi*

Bölgə xəbərlər

### Lənkəranda xatirə turniri

Lənkəran Olimpiya İdman Kompleksində 2016-cı ilin Aprel döyüşlərində həlak olmuş şəhidlərin xatirəsinə həsr edilmiş yunan-Roma güləşi üzrə rayon turniri başa çatıb.

İki gün davam edən turnirdə Bakı və Lənkəran şəhərlərini, Abşeron, Cəlilabad, Lerik, Masallı və Zəngilan rayonlarını təmsil edən 2004-2009-cu il təvəllüdlü 300 güləşçi 8 çəki dərəcəsində qələbə uğrunda mübarizə aparıb.

Yarışın yekun nəticələrinə əsasən, "Lənkəran" komandası birinci, "Cəlilabad" komandası ikinci, Bakı şəhərinin "UGİM-9" komandası üçüncü yeri tutub.

Qaliblərin mükafatlandırılması mərasimində çıxış edən şəhid valideynləri Laim Veysəlov, İbrahim Ağayev və Aprel döyüşlərində yaralanaraq əlil olmuş Ramin Ümmətov bu döyüşlərdə Azərbaycan əsgərinin qəhrəmanlığından danışaraq, ölkəmizdə şəhid ailələrinə və müharibə əlillərinə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Qaliblərə diplomlar, medallar və kuboklar təqdim olunub.

İdarəsinin rəisi Rasim Paçalov çıxış edərək, ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından danışıb, idmançılara uğurlar arzulayıblar.



Yarışların baş hakimi, beynəlxalq dərəcəli hakim Qərib Əliyev olub.

Respublika birinciliyinin qalibləri diplom və medallarla təltif olunublar.

* * *

Aprelin 27-də Balakən Olimpiya İdman Kompleksində Yeniyetmələrin XII Respublika Oyunlarının proqramına daxil olan sərbəst güləş üzrə 2004-2005-ci il təvəllüdlü yeniyetmələr arasında respublika birinciliyinin final mərhələsi keçirilib. Yarışlarda respublikamızın 30-dan çox şəhər və rayonunu təmsil edən 210 güləşçi mübarizə aparıb. İdmançılar 15 çəki dərəcəsi üzrə yarışıblar.

Birinciliyin açılış mərasimində Gənclər və İdman Nazirliyinin məsul nümayəndəsi Yaşar Rzayev və Balakən Rayon Gənclər və İdman

* * *

Oğuz Olimpiya İdman Kompleksində Yeniyetmələrin XII Respublika Oyunlarının proqramına daxil olan 2005-2006-cı il təvəllüdlü oğlan və qızlar arasında stolüstü tennis üzrə zona yarışları keçirilib.



Yarışda Bakı, Sumqayıt, Şirvan şəhərlərini, Balakən, Qax, Şəki, Qəbələ, Oğuz, Qobustan və Ağdaş rayonlarını təmsil edən 11 komanda mübarizə aparıb. Paytaxt tennisçiləri zona yarışında 2 komanda ilə təmsil olunub. Komandaların heyətinə 4 oğlan və 4 qız tennisçi daxil olub. Qarşılaşmaları Azərbaycan Stolüstü Tennis Federasiyasının hakimləri idarə edirlər.



## İdmançılarımız Ukrayna zəfəri

Azərbaycan idmançıları Ukraynanın Xarkov şəhərində döyüş növləri üzrə Avropa çempionatında uğurla çıxış ediblər.

28 ölkədən 850 idmançının iştirak etdiyi yarışda ölkəmiz 13 idmançı ilə təmsil olunub. Çempionatda idmançılarımız şaolin sanda, şaolin full və peşəkar növlərdə öz güclərini sınayıblar.

Çempionatda idmançılarımızdan Tamerlan Şahverdiyev (27 kq), Riyad Əliyev (60 kq), Tural Qəhrəmanlı (60 kq) və Anar Novruzov (65 kq) qızıl medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə yüksəliblər. Sabit Paşayev (+85 kq), Zamin Baxşıyev (65 kq) və İlqar Nəcəfli (ağır çəki) gümüş medala layiq görülüblər. Orxan Rzalı (40 kq), Həsən Həsənzadə (44 kq), Nihad Ağayev (60 kq), Murad Səmədov (60 kq), Ramil Abilov (65 kq), və Elçin Hüseynov (90 kq) bürünc medalla kifayətləniblər.

Qeyd edək ki, Azərbaycan yığma komandası turnirdə AŞDSF-nin prezidenti Rafiq Əliyevin, peşəkar döyüşlər üzrə baş məşqçi Ruhi Hüseynovun rəhbərliyi altında mübarizə aparıblar.

## Yelkənçilərimiz Sloveniyada yüksək bacarıq nümayiş etdiriblər

Yelkənli İdman Federasiyasının yığma komandası Sloveniyada Optimist və Laser sinifləri üzrə keçirilən "Izola Spring Cup" və "Easter Regata" yarışlarında iştirak edib.



Yelkənçilərimiz yarışlardan əvvəl beynəlxalq səviyyəli məşqçi Draqan Gasicin rəhbərliyi ilə təlim məşqlərə qatılıblar.

Avropa çempionatına hazırlıq xarakteri daşıyan yarışlarda 14 ölkədən 450 idmançı təmsil olunur. Optimist sinif üzrə iki və Laser 4,7 sinif üzrə üç yarış keçirilib. Öz bacarıq və peşəkarlıqları ilə seçilən yelkənçilərimiz Murad Hacızadə və Ayla Babayeva "Qızıl qrup"da yarışmaq imkanı əldə ediblər. Yelkənli İdman Federasiyasının gənc idmançılarının peşəkar yelkənçilərlə bir qrupda yer alması beynəlxalq səviyyəli məşqçilər tərəfindən xüsusi diqqət və rəğbətlə qarşılanıb.

Laser sinif üzrə yarışan yelkənçilərimiz Murad Allahverdi və İsmayıl Kərimov üç yarışda iştirak edərək yüksək bacarıq nümayiş etdiriblər. Azərbaycanı yarışlarda Optimist sinif üzrə yelkənçilərimiz Ayla Babayeva, Fidan Ağazadə, Kristina Kərimova, Murad Hacızadə, Murad İsmayılov, Səxavət Əzimov, Laser sinif üzrə Murad Allahverdi və İsmayıl Kərimov, heyətin rəhbəri Burcu Algon Giorgianni, Optimist sinif üzrə məşqçi Seyhun Yıldız, Laser sinif üzrə məşqçi Tuğçə Subaşı, köməkçi məşqçi Anton Vilyayev təmsil ediblər.

Xatırladaq ki, aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi hər zaman maddi texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, Təhsil Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində Optimist sinif üzrə 7-14 yaş uşaqlar, Laser sinif üzrə isə 14 yaşdan yuxarı yeniyetmələri bu idman növünə cəlb etmək olub.

Təlim məşqlərin keçirilməsində Azərbaycan Yelkənli İdman Federasiyasında hazırda Optimist və Laser sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə ayrı-ayrılıqda, xaricdən dəvət edilən iki baş məşqçi fəaliyyət göstərir. Məhz xaricdən dəvət edilən idman menecerləri, yüksək göstəricilərə malik mütəxəssislərin köməyi ilə komandaların məşqləri keçirilir.

Beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edən yelkənçilərimiz dəfələrlə ölkə xaricində təşkil olunan təlim-məşq düşərgələrində iştirak ediblər. Bu, idmançılarımızın beynəlxalq yarışlara hazırlıqlarının təkmilləşdirilməsi, onların taktiki biliklərinin artırılması və müxtəlif hava şəraitlərində yarış təcrübələrinin daha da gücləndirilməsi məqsədi daşıyır.

## Əbu-Dabidə uğurlu çıxış

Azərbaycan Ciu-Citsu Federasiyasının və Braziliya Ciu-Citsu Departamentinin üzvləri Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən "Abu-Dhabı World Jıu Jıtsu Championship" yarışında uğurla iştirak ediblər.

Yığma komandamız bu yarışda geniş heyətlə təmsil olunub. Yarışda ölkəmizi Emil Verdiyev, Elçin Nəbiyev, Zaur Mehdiyev, Əhməd Babayev, Nuru Daşdəmirov, Ayaz Süleymanov, Vüqar Tağıyev, Mehman Fətəliyev, Həsən Novruzov, İrfan Əfəndiyev, Rəşad Rzayev, Fərhad İbrahimov, Elnur Süleymanov, Vüsal Eynullayev və Çingiz Mehdiyev təmsil ediblər. Onlardan Emil Verdiyev və Vüqar Tağıyev qızıl medal qazanıblar. Elçin Nəbiyev gümüş, Fərhad İbrahimov, Zaur Mehdiyev və Mehman Fətəliyev isə bürünc medal qazanıblar.

Qeyd edək ki, idmançılarımız Braziliya Ciu-Citsu Departamentinin direktoru Azər Beydullayevin rəhbərliyi ilə mübarizə aparıblar.

# FUTBOL

## "Neftçi"dən gözlənilməz məğlubiyyət



Futbol üzrə Topaz Premyer Liqasında 26-cı turun oyunları keçirilib. Turun açılış oyunu Zirə Olimpiya Kompleksində baş tutub. "Zirə" və "Qarabağ" komandaları arasında təşkil olunan görüş Ağdam təmsilçisinin 3:0 hesablı qələbəsi ilə başa çatıb. Qurban Qurbanovun yetirmələrindən Dani Kintana (20), Filip Ozobiç (28) və Mahir Mədətov (79) fərqləniblər. Turun digər oyunlarında "Sabah" - "Keşlə" qarşılaşması heç-heçə (1:1) başa çatıb. "Səbail" isə doğma meydanda "Qəbələ"ni məğlubiyyətə uğradıb - 2:1.

Turun sonuncu görüşü "Bakcell Arena" stadionunda oynanılıb. Çempionluğa iddialı "Neftçi" doğma azarkeşlər önündə "Sumqayıt" komandasını qəbul edib. Görüş sumqayıtlıların 3:2 hesablı qələbəsi ilə başa çatıb. "Sumqayıt" klubunun heyətində Əmir Ağayev (31), Ülvi İsgəndərov (44) və Murad Xaçayev (77), "flaqman"ın heyətində isə Ruslan Abışov (8) və Baqali Dabo (72) fərqləniblər.

26-cı turun oyunlarından sonra çempionata 60 xalla "Qarabağ" başçılıq edir. "Neftçi" 55 xalla ikinci, "Səbail" isə 41 xalla üçüncü pillədədir. Digər yerlərdə müvafiq olaraq, "Qəbələ" (36 xal), "Sabah" (27), "Zirə" (25), "Sumqayıt" (23) və "Keşlə" klubları qərarlaşıblar.

## *Yarımfinalda yenə də ingilis və ispan hegemonluğu*

Çempionlar Liqasının yarımfinal mərhələsinin ilk oyunu çərçivəsində keçiriləcək "Tottenhem" - "Ayaks" matçının hakimləri müəyyənləşib. Görüş ispaniyalı hakimlər briqadasına tapşırılıb.

Oyunu Antonio Migel Mateu Lahoz idarə edəcək. Ona yan xətdə Pau Sebrian Devis və Roberto Diaz Perez del Palomar kömək edəcəklər. Qarşılaşmanın dördüncü hakimi isə Alberto Undiano Mallenko olacaq.

Çempionlar Liqasının yarımfinal mərhələsinin ilk oyunu çərçivəsində keçiriləcək "Barselona" - "Liverpul" matçının hakimləri də məlumdur. "Nou Kamp"dakı görüşü hollandiyalı hakimlər idarə edəcək.

Byörn Kuypersin idarə etdiyi matçda yan xətdə Mario Diks və Ervin Zeinstra yer alacaq. Dördüncü hakim funksiyasını yunanıstanlı Anastasios Sidiropulos yerinə yetirəcək. VAR sisteminə isə Danni Makkelie nəzarət edəcək.





## *Kubokun finalçıları bu həftə müəyyənləşəcək*

Azərbaycan kubokunda 1/2 final mərhələsinin cavab görüşləri üçün bütün təyinatlar açıqlanıb. PFL-in rəsmi saytında yer alan xəbərə görə, "Qarabağ" - "Qəbələ" matçı İnqilab Məmmədova, "Zirə" - "Sumqayıt" görüşü isə Əliyar Ağayevə tapşırılıb. Xatırladaq ki, ilk oyunda "Qəbələ" evdə "Qarabağ"ı minimal hesabla məğlub edib. "Sumqayıt" isə "Zirə" ilə qolsuz heç-heçəyə razılaşıb.

**1 may (çərşənbə)**

**17:00. "Qarabağ" - "Qəbələ"**

**Hakimlər:** İnqilab Məmmədov, Rahil Ramazanov, Pərvin Talıbov, Rəşad Əhmədov

***Tofiq Bəhramov adına Respublika Stadionu***

**20:00. "Zirə" - "Sumqayıt"**

**Hakimlər:** Əliyar Ağayev, Zeynal Zeynalov, Akif Əmirəli, Rauf Allahverdiyev

***Zirə İdman Kompleksinin stadionu***

## *Baş məşqçi ailəsi üçün darıxıb*

Çin millisinin baş məşqçisi Fabio Kannavaro istefa verib.

İtaliya yığmasının sabiq üzvü bu barədə şəxsi İnstagram səhifəsində yazıb. O, gedişinin səbəbini belə izah edib:

""Quançjou Everqrand" klubuna və Çin Futbol Federasiyasına təşəkkür edirəm. Onlar iki böyük komandanı eyni anda mənə həvalə ediblər. Ancaq iki yerdə birdən çalışmaq çox vaxtımı alır və ailəmə vaxt sərf edə bilmirəm".



Qeyd edək ki, Kannavaronun Çin millisindəki işi cəmi bir ay çəkib. Bu müddətdə yığma Tailand və Özbəkistana məğlub olub.

## Katalonlardan son 11 ildə 8-ci çempionluq




İspaniya La Liqasının 35-ci turu "Barselona" klubu üçün əlamətdar olub. Kataloniya təmsilçisi "Levante" klubunu minimal hesabla (1:0) məğlub edərək mövsümün başa çatmasına üç tur qalmış çempionluğunu rəsmiləşdirib. Oyunda yeganə qolu 62-ci dəqiqədə Lionel Messi vurub. İndiyədək keçirdiyi 35 oyundan 83 xal toplayan "Barselona" turnir cədvəlində ən yaxın izləyicisi "Atletiko Madrid" klubu üçün əlçatmaz olub. Çempionatda üçüncü yeri hesabında 65 xal olan "Real Madrid" tutur.

## Hazardın yeni klubu müəyyənləşdi

Münhenqladbax "Borussiya"sının yarımmüdafiəçisi Torqan Hazard mövsümün sonunda komandasını dəyişəcək.



Almaniya mətbuatında yayılan xəbərə görə, bu barədə belçikalı futbolçu özü məlumat verib. O, "VTN Nieuws" nəşrinə müsahibəsində Dortmund "Borussiya"sı ilə razılığa gəldiyini bildirib. 26 yaşlı oyunçunun sözlərinə görə, artıq yeni klubu ilə şəxsi müqavilənin şərtlərini də razılaşdırıb. Bundan sonra isə klublar öz aralarında transferin detallarını müzakirə edəcəklər.

Qeyd edək ki, Torqan "Çelsi"də çıxış edən Eden Hazardın qardaşıdır.

## Fransalı məşqçi vətənində işləyəcək

"Arsenal"ın sabiq baş məşqçisi Arsen Venger Fransada çalışa bilər. "Lion" rəhbərliyi fransız mütəxəssislə danışıqlara başlayıb. Klub mövsümün sonunda komandanı tərk edəcək Bryuno Jenezonu Vengerlə əvəzləmək istəyir.

Qeyd edək ki, 69 yaşlı çalışdırıcı ötən il "Arsenal"dan ayrıldıqdan sonra işsizdir.

## Rekord: 100 matçda 69 qol

"Liverpul" klubunun ulduz futbolçusu Məhəmməd Salah Premyer Liqanın XXXVI turunda "Haddersfild"la matçda İngiltərə təmsilçisinin tarixinə düşüb.

27 yaşlı yarımmüdafiəçi həmin görüşdə iki qol vurmaqla yeni rekorda imza atıb. Misirli oyunçu "mersisaydlılar"ın heyətində 100-cü matçında 69-cu qolunu vurub. Bu isə klub tarixində ən yaxşı nəticədir.

Daha əvvəl Rodjer Hant (1959-1969) və Sem Reybould (1900-1907) ilk 100 oyunda 68 qolla yadda qalıb.

Qeyd edək ki, "Haddersfild"la qarşılaşma "Liverpul"un 5:0 hesablı qələbəsi ilə yekunlaşıb. Salah, həmçinin Premyer Liqada 21 qolla bombardirlər siyahısına başçılıq edir.

## Kapitan "Real"a gəlir



"Mançester Yunayted"in kapitanı Pol Poqba "Real"a keçməyə yaxındır. Fransalı yarımmüdafiəçinin meneceri Mino Rayola yeni müqavilə ilə bağlı klub rəhbərliyi ilə planlaşdırılan görüşü ləğv edib. Komandanın uğursuz çıxışının davam etdiyini görən 26 yaşlı futbolçu özü isə növbəti dəfə Madridə getmək istədiyini dilə gətirib. İspaniyanın məşhur AS nəşri isə Poqbanın "Real"la şəxsi müqavilənin şərtləri barədə razılığa gəldiyini yazıb. İddiaya görə, ulduz futbolçu vergi xərcləri çıxıldıqdan sonra Madrid klubunda ilinə 12 milyon avro qazanacaq.

Qeyd edək ki, "Mançester Yunayted"lə 2021-ci ilin yayına qədər müqaviləsi olan Poqba bu mövsüm 44 oyunda 16 qol vurub, 11 dəfə isə məhsuldar ötürmə edib.

## Çexiya millisinin futbolçusu həyatını itirdi

Türkiyə futbolunda faciə baş verib. Ötən həftə Türkiyə Superliqasının 30-cu turunda keçirilən "Kayserispor" - "Alanyaspor" (1:1) oyunundan sonra faciə baş verib. Belə ki, qonaqların 7 əcnəbi futbolçusunu aparan mikroavtobus qəzaya uğrayıb. Sürücünün yolda yuxulaması mikroavtobusun aşmasına səbəb olub. Nəticədə hücumçu Jozef Sural vəfat edib. Çexiya millisinin üzvü dərhal xəstəxanaya aparılsa da, onun həyatını xilas etmək mümkün olmayıb. Digər futbolçular yüngün xəsarət alıb.

Qeyd edək ki, 28 yaşlı futbolçu bu ilin yanvar ayından Alanya təmsilçisində çıxış edirdi.

## Bu komanda üç ildən sonra Premyer Liqaya qayıdır

"Norviç Siti" futbol üzrə İngiltərə Çempionşipinin 45-ci turunda "Blekbern Rovers"i məğlub edib. Norvic şəhərinin "Kerrou Roud" stadionunda keçirilən qarşılaşma Daniel Farkenin komandasının 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Qalib komandanın heyətində yarımmüdafiəçilər Marko Ştayperman və Mario Vrançiç fərqləniblər. Rəqibin yeganə qolunu müdafiəçi Lüis Trevis öz adına yazdırıb.

Beləliklə, "Norviç" çempionatın bitməsinə bir tur qalmış turnir cədvəlində ən azı ikinci pilləni özünə təmin edib ki, bu da klubun Premyer Liqaya vəsiqə qazanmasına imkan verir. İndi komanda üç ildən sonra yenidən yüksək diviziona qayıtmış olacaq.

## *Atanın ürəyi oğul həsrətinə dözmədi*

Təyyarə qəzasında həyatını itirən Emilliano Salanınn atası Horasio Sala dünyasını dəyişib. 58 yaşlı Horasionun ölümünə ürək tutması səbəb olub. Ona tibbi müdaxilə edilsə də, həyatını xilas etmək mümkün olmayıb. Xatırladaq ki, Sala yanvarın 19-u "Nant"dan "Kardiff"ə 17 milyon avroya transfer olunub. O, yanvarın 22-i Fransadan Kardiffə xüsusi təyyarə ilə yola salınıb. Ancaq hava gəmisi mənzil başına çatmazdan yarım saat əvvəl radardan itib. Sonradan axtarış qrupu təyyarəni La Manş boğazından tapıb.





# Dünya idmanı

## Gürcüstanlı atıcı üçün 9-cu Olimpiada

Gürcü qadın atıcı Nino Salukvadze öz karyerasında sayca 9-cu Olimpiadada iştirak edəcəyi ilə rekorda imza atıb və adını Olimpiya hərəkatı tarixinə yazdırıb. Bu məlumat Beynəlxalq İdman Atıcılığı Federasiyasının (ISSF) rəsmi saytında yer alıb.

Güllə atıcılığı üzrə dəfələrlə dünya çempionu olmuş idmançı Pekində keçirilən Dünya Kuboku mərhələsində 10 metr məsafədən pnevmatik tapançadan atəşaçmada beşinci yeri tutaraq Olimpiya lisenziyasını qazanıb.

50 yaşlı idmançı bundan əvvəl - 1988-ci ildən başlayaraq ard-arda səkkiz Olimpiadada iştirak edib. O, 1988-ci ildə keçirilən Seul Olimpiadasında SSRİ yığmasının tərkibində 25 metr məsafədən tapançadan atəşaçmada qızıl, 10 metr məsafədən pnevmatik tapançadan atəşaçmada isə gümüş medallar qazanıb. 2008-ci il Pekin Olimpiadasında Salukvadze 10 metr məsafədən pnevmatik tapançadan atəşaçmada üçüncü olub.



Gürcü idmançı qadınlar arasında doqquz Olimpiadada iştirak edəcək ilk atletdir. Oyunlarda səkkiz dəfə iştirak edənlər arasında alman baydarkaçısı Yozef İdem və akademik avarçəkmə üzrə kanadalı idmançı Lesli Tompson var.

Yay Olimpiadalarının sayına görə lider isə atçılıq idmanı üzrə yarışçı - 71 yaşlı kanadalı İan Millardır. O, on turnirdə iştirak edib.

Qış Oyunlarında isə hamıdan çox - səkkiz dəfə xizəklə tramplindən tullanma üzrə Yaponiya təmsilçisi Noriaki Kasay iştirak edib.



## Makqreqorla danışıq aparılır

UFC-nin prezidenti Deyn Uayt tanınmış döyüşçü Konor Makqreqorla görüşü barədə danışıb.

O, deyib: "Biz onunla bugünlərdə Mayamidə görüşməli idik. Lakin müəyyən səbəblərdən bu, alınmadı. Biz tezliklə Los-Ancelesdə görüşməyi planlaşdırmışıq".

UFC prezidenti bundan əvvəl iki çəki dərəcəsində dünya çempionu olan Makqreqor 2019-cu ildə rinqə qayıdacağını bildirmişdi.

## Endi Mürrey korta çıxmayacaq

Dünyanın sabiq raketka ustası Endi Mürrey səhhəti ilə bağlı danışıb.

Tanınmış tennisçi bud sümüyündə edilən cərrahiyyə əməliyyatının normal keçdiyini bildirib və karyerası barədə danışıb.

"Kortda sağlamlığım barədə heç düşünmürdüm. Sağalandan sonrada, korta qayıdıb-qayıtmayacağamı bilmirəm. Özümü yaxşı hiss etsəm, sağlamlığım əl versə, cəhd edərəm.



Hazırda bir az zəiflik var. Amma dincəlirəm və həyatdan zövq almağa çalışıram" - deyə, Endi Mürrey bildirib.

## *NBA-da perspektivli oyunçu yetişir*

NBA çərçivəsində "Denver"in baş məşqçisi Maykl Meloun mərkəz hücümçusu Nikola Yokiçin oyunundan məmnun qaldığını bildirib.

Söhbət pley-off mərhələsində "San Antonio" ilə oyundan gedir.

Bu matçda "Denver" rəqibini seriyada 4:3 hesabı ilə məğlubiyyətə uğradıb.

"Nikolanın oyunu məni bir daha inandırdı ki, o, gələcəkdə "Şöhrət zalı" və MVP-nin üzvü olacaq. Bu oğlan ilk dəfə pley-off-da oynasa da, yüksək peşəkarlıq nümayiş etdirdi. NBA-da cəmi 4 mövsüm keçirən bu basketbolçunun gələcəyinə çox inanıram"- deyə, baş məşqçi bildirib.

## Həftəlik idman qoroskopu

**Qoç**

Bu həftə istirahət etmək fikriniz, çətin ki, baş tuta. Əksinə, yeni məşqlərə başlamaq lazımdır. Büdcənizdə artım ola bilər. Komanda yoldaşlarınızla mübahisələrdən uzaq olun.

**Buğa**

Ulduzlar idmanda çətinlik çəkdiyinizi görərək sizə güzəştə getmək fikrinə düşüb. Məşqlərə davam etməyiniz vacibdir. Qalib gəlmək ehtimalınız var.

**Əkizlər**

Əsas vaxtınızı istirahətə yönəltməyə çalışın. Hər hansı fiziki hərəkət səhhətinizə mənfi təsir göstərə bilər. Çalışın ki, bu həftə fiziki iş görməyəsiniz.

**Xərçəng**

Sizin üçün olduqca uğurlu təqvimdir. Ulduzlar həm əlverişli təkliflər alacağınızı, həm də idman uğurlarına nail olacağınızı bildirir.

**Şir**

Tərəfdaşlarınızla aranızda müəyyən mübahisələrə əhəmiyyət verməyin. Özünüzü təmkinli aparın. Deyilən hər sözə ciddi yanaşmaq lazım deyil. Yaxşı olar ki, bütün gücünüzü səhər qaçışlarına yönəldəsiniz.

**Qız**

Astroloji göstəricilər həftənin birinci yarışını müəyyən qədər gərgin tərzdə başa vuracağınızı bəyan edir. Sonrakı günlərdə isə idman uğurlarınız yüksək və xoşagəlimli olacaq.

**Tərəzi**

Maddi durumunuz o qədər də ürəkaçan olmayacaq. Narahat olmağa dəyməz və əsəblərinizi qorumağa çalışın. Bir az da idmana üstünlük verin. Həftənin sonunda sizi xoş xəbər gözləyir.

**Əqrəb**

Sizin üçün uğurlu təqvimdir. Bu həftə idman sahəsində nailiyyətləriniz çox olacaq. Yarışlardan çəkinməyin. Çünki qalib gəlmək ehtimalınız daha çoxdur.

**Oxatan**

Həftənin birinci yarısında bütün məşqlərinizi təxirə salmağınız məsləhətdir. Əks təqdirdə gözlədiyiniz uğurlardan uzaq düşəcəksiniz.

**Oğlaq**

İdmandan kənar gəzin. Əsəb gərginliyi keçirəcəksiniz. Kobudluq etməyin. Bu həftə səyahətə çıxsanız, daha yaxşı olar.

**Dolça**

Ulduzlar yalnız ciddi məşq etsəniz, uğurlara yiyələnəcəyinizdən xəbər verir. Bu səbəbdən vaxtınızı məşq zallarında keçirmək səmərəlidir.

**Balıqlar**

Yüksək səviyyəli yarışlar yolunuzu gözləyir. Bu, daha çox şahmat idman növündə reallaşacaq. Yoldaşlarınızla xırda mübahisələriniz gözlənilir. Çılğınlıqdan uzaq olun.



## Biri hasara çırpıldı, biri çevrildi

NASCAR rallisinin ABŞ-ın Alabama ştatında yerləşən "Talladega Superspeedway"dəki növbəti mərhələsində Kayl Larsonun avtomobili bir neçə dəfə dövrə vurub.

Buna səbəb digər sürücü Uilyam Bayronun 26 yaşlı pilotun "Chip Ganassi Racing Chevrolet Camaro" markalı maşını vurması olub.

Larson daha sonra digər həmkarı Cefri Yernhardın idarə etdiyi avtomobillə toqquşub. Nəticədə hər iki avtomobil sıradan çıxıb. Yernhardın maşını hasara çırpılıb, Larsonun avtomobili isə bir neçə dəfə çevrilib. O, hadisədən sonra avtomobilin uçduğunu hiss etdiyini və dayanacağına ümid etdiyini söyləyib. Sürücü hadisədən sonra ciddi xəsarət almayıb.

Qeyd edək ki, bu, Kayl Larsonun son dörd yarışda dördüncü qəzası olub.


**olimpnews.az - sizin saytınız**





Milli Olimpiya Komitəsinin kollektivi "İdman" qəzetinin baş redaktoru Qabil Mehdiyevə, atası

**Sabir Mehdiyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Gənclər və İdman Nazirliyinin kollektivi "İdman" qəzetinin baş redaktoru Qabil Mehdiyevə, atası

**Sabir Mehdiyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin kollektivi Qabil Mehdiyevə, atası

**Sabir Mehdiyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi Qabil Mehdiyevə, atası

**Sabir Mehdiyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Qabil Mehdiyevə, atası

**Sabir Mehdiyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi iş yoldaşları Aslan Şirəliyevə, əzizi

**Rahilə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!


Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19